İclası təhsil naziri Misir Mərdanov açaraq bu barədə təqdimat etmək üçün sözü nazirliyin Kənd rayonları üzrə ümumi təhsil şöbəsinin aparıcı məsləhətçisi Afət Süleymanovaya verib. A. Süleymanova öncə ölkəmizdə alı təhsilin bakalavr pilləsində tədris edilən “Təhsilin əsasları” fənni üzrə I semestrin nəticələrindən bəhs edib. Sonra A.Süleymanova II semestrdə tədris ediləcək “Təhsildə dövlət siyasəti”, “Təhsilin iqtisadiyyatı” məzmun xətlərinə, eləcə də qeyd olunanlara dair təlim materialları haqqında məlumat verib. Təqdimatda “Təhsilin iqtisadiyyatı”, “Kurikulum və onun elmi-nəzəri əsasları”, habelə “Təhsilin metodoloji əsasları” üzrə IV və V semestrdə ayrılacaq dərs yükü barədə də danışılıb.

Sonda müvafiq fənn üzrə tədrisin səmərəliliyini yüksəltmək məqsədi daşıyan rəy və təkliflər verilib.